# “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 7, maddə 452, N 12, maddə 731; 2002, N 12, maddə 706; 2005, N 10, maddə 902; 2006, N 11, maddə 927; 2007, N 1, maddələr 1, 4, N 2, maddə 82, N 6, maddə 570, N 8, maddə 756, N 11, maddələr 1078, 1081; 2008, N 3, maddə 155, N 4, maddə 250, N 8, maddə 696; 2009, N 6, maddə 399, N 11, maddələr 877, 878; 2010, N 3, maddə 171, N 11, maddə 944; 2011, N 2, maddə 71, N 11, maddə 988; 2012, N 11, maddə 1039; 2014, N 3, maddə 238; Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 80-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 16.3-cü maddədə “Verilmiş şikayət” sözləri “Bu qanunun 16.4-cü maddəsinə əsasən intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, verilmiş şikayət” sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 16.4-cü maddə əlavə edilsin:

“16.4. Şikayət verildiyi hallarda, barəsində şikayət olunan intizam tənbehinin tətbiq edilməsinə dair qərarın icrasının dayandırılması ilə bağlı məsələyə, maraqlı şəxsin ərizəsinə əsasən və ya xidməti vəzifəsinə görə şikayət instansiyasının öz təşəbbüsü ilə, şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2016-cı il*